**"Yarasa" ilk "Qran pri" alan Azərbaycan filmi olmuşdu, ən məşhur kino jurnalı bu filmi şah əsər adlandırdı. Kinonun 100 illiyində, kinonun vətəni olan Fransada Beynəlxalq Avropa Festivalında - hansı ki, orada bütün Avropa ölkələri var idi - İspaniya, İtaliya, İngiltərə, Fransa - Azərbaycan "Qran pri" aldı.**

# ART müsahibə

## Müsahibimiz kinoşünas, Azərbaycanın əməkdar incəsənət xadimi Ayaz Salayevdir



**- Xoş gördük, Ayaz müəllim. Sənətdən, kinodan danışmağı planlayırıqsa, söhbətimizə "Yarasa" filminizlə başlasaq, daha fundamental addım atmış olarıq. Hansı ki, bu film çağdaş Azərbaycan kinosu adına atılmış çox ciddi addımdır. Təəssüf ki, filmin çəkilişindən cəmi 20 il ötsə də, sanki "Yarasa" artıq tarixə qovuşub. Bugünkü tamaşaçının "Yarasa"ya baxmaq şansı varmı, yəni, bu filmi harada izləmək mümkündür?**

- Hazırda internetdə zəif keyfiyyətli formatda var. Öncə onu qeyd edim ki, "Yarasa" özəl büdcəylə çəkilən bir film idi. Film elə bir dönəmdə çəkilmişdi ki, o vaxt dövlət istehsalı sıfır dərəcəsində idi. Ekranlara 1995-ci ildə çıxsa da, film 1993-cü ildə çəkilirdi. 1995-ci ildə uğurlu festival taleyi yaşadı. İş ondadır ki, film özəl büdcə ilə çəkildiyinə görə bu gün onun qayğısına qalan yoxdur. Baxmayaraq ki, mən onu kinostudiyada çəkmişdim, o zaman sponsorun sayəsində nə qədər kino adamı o filmə görə iş də tapa bilmişdi. Bununla yanaşı film "Azərbaycanfilmin" istehsalı deyil. "Azərbaycanfilm" öz filmlərinə dəstək verir. Ona görə də "Yarasa" filmi yiyəsiz qaldı. Baxmayaraq ki, müasir Azərbaycan tarixi dərsliyində "Yarasa" filmi var. Kitabda film haqqında məlumat yer alıb. Lakin Azərbaycan kinosu haqqındakı kataloqlarda, jurnallarda bu haqda ümumiyyətlə məlumat qeyd olunmur. Bunun səbəbi bəlkə də filmin çox fərqli olmasında idi. Çünki "Yarasa" xaricdə daha yüksək dəyərləndirildi, qəbul olundu, nəinki ölkədə. 2 il öncə Avstriyada 40 ölkə kinoşünasları arasında sorğu keçirildi. Son 25 ildə Azərbaycandan çıxan ən yaxşı film kimi ən çox xalı "Yarasa" topladı. Yəni, üstündən 20 il ötməsinə baxmayaraq, yenə dəyər verildi.

**- Sənət sferasında analiz etsək, Azərbaycanda "Yarasa"nın "qanad çala bilməməsi"nin, sizcə, səbəbi nədir?**

- Mən düşünürəm ki, "Yarasa"da ənənəvi kinoya yabançı, yad mövzu qoyulmuşdu. Bu gün ümumiyyətlə, dünyada belə bir tendensiya var - hansı ki, bu, vaxtilə SSRİ-də mərkəz Moskva tərəfindən həyata keçirilirdi, müstəqillikdən sonra isə dünya kino idarəediciləri tərəfindən həyata keçirilir - müəyyən bir mövzular, yanaşmalar var ki, filmlər onların ətrafında çəkilməlidir. Bu gün yalnız Avropa ölkələrində yaşayan rejissorlara öz mədəniyyətləri haqqında, ciddi dəyərləri haqqında film çəkməyə icazə verilir. Digər ölkələrdə isə - məsələn, mənim son dərəcə hörmət etdiyim, son dərəcə peşəkar iş saydığım İran kinolarında isə qəhrəmanlar yalnız balaca insanlar olur, öz kiçik məişət qayğıları ilə vurnuxur, öz sosial problemləri ilə çarpışır. İranda son dərəcə zəngin ziyalı potensialı var, amma bunların heç biri ekranda əks olunmur. Ekranda biz kiçik qayğıları ilə baş-başa qalan balaca qəhrəmanlar görürük. Amma bu balaca qəhrəmanlar son dərəcə peşəkarlıqla işlənir.

Vaxtilə sovet dönəmində də eyni tendensiya müşahidə olunurdu. Mən bir məsələyə son dərəcə qəzəbləndim; "Vikipediya"da 93 faizi azərbaycanlılardan təşkil olunmuş 416-cı diviziya haqqında qeyd olunub. Hansı ki, bu diviziya Berlinə ilk girən, ilk bayraq sancan diviziyadır, orada Vahab Osmanov kimi qəhrəman oğullar həlak olub, leytenant Məcidov tərəfindən idarə olunan qrup Brandenburqda "Zəfər tağı"nın üstünə qələbə bayrağını sancıb. Bu dönəmdən bəhs edən bizim kino harada idi? Bizim kino müharibə zamanı arxa cəbhədə yazıq-yazıq sabun bişirən, müharibəyə getmək istəsə də, gözləri zəif olduğundan cəbhəyə buraxılmayan Cəbiş müəllimin yanında idi. Sanki, Azərbaycanın müharibəyə verdiyi sabun bişirmək idi. Ən yaxşı halda Azərbaycan xammal, neft ilə əhəmiyyətli idi.

Bu yöndən Azərbaycan filminə rejissorlar deyil, qəhrəman olaraq şəxsiyyətlər gəlməlidir. Onlar uzaqbaşı Qarabağ problemini yox, dünyəvi, qlobal problemləri düşünən qəhrəmanlar olmalıdır. Yenə deyirəm, bu, vaxtilə Moskvadan, indi də dünyanın müəyyən qurumları tərəfindən təqdim olunan seçimdir. Bu, təkcə müasir Azərbaycan kinosunun deyil, dünya kinosunun problemidir. Minimalist kino ehtiyacı yəqin ondan irəli gəlir ki. Yer kürəsinin əhalisi çoxalır, balaca adamların dövrü gəlir. O balaca adamları ekranda həmişə görmüşük - Amerikanın məşhur komediyalarında və s. Ancaq o balaca adamlar hansısa böyük məqsədlər uğrunda vuruşurdu. İndi isə kinoda balaca adamlar balaca problemlərlə çarpışır. Bu tendensiya 1990-cı illərdən bu yana hər şeyi alıb, götürüb.

***Minimalist kino ehtiyacı yəqin ondan irəli gəlir ki, Yer kürəsinin əhalisi çoxalır, balaca adamların dövrü gəlir. O balaca adamları ekranda həmişə görmüşük - Amerikanın məşhur komediyalarında və s. Ancaq o balaca adamlar hansısa böyük məqsədlər uğrunda vuruşurdu. İndi isə kinoda balaca adamlar balaca problemlərlə çarpışır.***

**Mən deməzdim ki, "Yarasa"nın qəhrəmanları böyük adamlardır, amma hər halda bunlar sənət adamlarıdır.**

"Yarasa" ilk "Qran pri" alan Azərbaycan filmi olmuşdu, ən məşhur kino jurnalı bu filmi şah əsər adlandırdı. Kinonun 100 illiyində, kinonun vətəni olan Fransada Beynəlxalq Avropa Festivalında - hansı ki, orada bütün Avropa ölkələri var idi - İspaniya, İtaliya, İngiltərə, Fransa - Azərbaycan "Qran pri" aldı.

**- Ayaz müəllim, bəs az öncə dediyiniz qiymətləndirmə kriteriyaları o zaman Fransada keçirilən festivalda yox idimi? Söhbət az əvvəl qeyd etdiyiniz dünya kino idarəedicilərinin birtərəfli yanaşmasından gedir.**

- Yox. Çünki "Yarasa"da passifizm, məişət-sosial düşüncələr yox idi. "Yarasa"nın qəhrəmanları azərbaycanlılar idi. Amma avropalı kimi görünürdülər. Düşüncələri ilə və s. Bəlkə də, onlar başqa şey gözləyirdilər Azərbaycandan, amma bunu qiymətləndirdilər.

**- Beynəlxalq festivalların şərq ölkələrinə qarşı birtərəfli yanaşması, İran kinosunun bu sərhədlər çərçivəsində uğur qazandığı fikrinizi əsas gətirərək belə bir qənaətə gəlmək olarmı ki, İran kinorejissorları Abbas Kiarostami, Möhsün Məhməlbaf, Cəfər Pənahi bu kriteriyalarda uduzaraq, öz şöhrətlərini ölkələrinin yüksək dəyərlərindən önəmli sayaraq uğur qazanıb?**

- Onlar çox böyük rejissorlardır. Sözsüz ki, bioqrafiyaları, yaradıcılıqları, ustalıqları onların böyük rejissor olduğunu sübut edir. Onlar müasir dünya kinosunun ən parlaq nümayəndələrindəndir. Bu faktdır. Bunu danmaq olmaz. Amma bəli, onlarda dünya kinosuna çıxmaq istəyi həmişə hiss olunur. Və onların bu baxımdan ayrı çıxış yolu da yoxdur. Beynəlxalq festivallar yeganə meydandır ki, onlara dəstək verə bilər, onları tanıda bilər. Amma əfsuslar olsun ki, bir qayda olaraq, təkcə kinoda deyil, digər müstəvilərdə də Şərq ölkələrinin mədəniyyətlərindən daha çox onların məişət problemləri, sosial durumlarına həsr olunan əsərlər qiymətləndirilir. Elə Nobel mükafatlı Misir yazıçısı Nəcib Məhfuzun əsərlərində də görürsən ki, kimsə evlənmək istəyir, amma pul tapa bilmir və s. kimi mövzular yer alır. Gözəl yazıçıdır, amma yenə də görürsən ki, əsərdə yüksək mədəni ideyalar deyil, digər elementlər diqqət çəkir. Mən çox istərdim ki, Şərq mədəniyyətində bu yöndə çevriliş yaransın.

**- Yəni, mənəvi dəyərlərin inikası olan əsərlərdə yüksək ideyalar yer alsın.**

- Mən bu yaxınlarda Moskvada bir rəssamın sərgisində oldum, hansı ki, artıq dünyasını dəyişib. O rəssamı mən daxilimdə həmyaşıdı olan adını çəkməyəcəyim Azərbaycan rəssamı ilə müqayisə etdim. Gördüm ki, bir rəssam, ustad kimi azərbaycanlı ondan qat-qat üstündür. Amma azərbaycanlı həmin rəssam əsərlərində yaşadığı zəmanəyə hökm vermir, sadəcə əks etdirir. Amma rus rəssam əsərlərinə yozum verir, hökm verir, şəxsiyyətini qoyur ortaya. İlk növbədə Şərq ustadlarından bunu arzulayardım.

**- Ayaz müəllim, o zaman belə bir qənaətə gəlirikmi ki, bu gün azərbaycanlı timsalında bir şərqli sənətkar ciddi sənət filmi ərsəyə gətirmək istəyirsə, beynəlxalq festivalları hədəf götürməli deyil?**

- Bu gün bu, mümkün deyil. Çünki indi iki yol var: ya çox baxılan kommersiya filmi çəkməlisən, ya da festivallarla hesablaşmalısan. Festivalların da öz konyekturası var. Amma onu da deyim ki, bədii cəhətdən dəyərli filmin festival həyatı olur. O baxımdan bu saat sənət filminin yeganə yolu festivaldır. Ötən əsrdən tutmuş bu yeni mədəniyyətin bir əlamətidir. XX əsrdə ədəbiyyata, təsviri incəsənətə, kinoya, musiqiyə yarış anlayışı gətirildi, o yarış ki, XIX əsrin sənətkarları ondan azad idi. Van Qoq ömrü boyu dilənçi həyatı sürürdü, möh-

təşəm əsərlər ərsəyə gətirdi. Fayum portreti... Qədim dahi rəssamlar ümumiyyətlə insanlar üçün çəkmirdi, əsəri qəbrin içinə qoyurdular. Bu tamam başqa psixologiya idi... Məsələn, Şekspirin qəbrində yazılmışdı ki, "Kim qəbrimi dağıtsa, ona lənət olsun!" Yəni, başqa bir gözləntisi yox idi.

Artıq bu yarış anlayışı hamını ağuşuna alıb. Puşkin deyir: "İlham satılmır, amma əlyazmanı satmaq olar".

**- Sovet dönəmində mövcud senzura, ideologiya, şərtlər çərçivəsində digər sovet filmlərilə müqayisədə olsa belə, ən çox özünü qoruya bilən, həqiqi kino estetikasını, dəyərlərini təqdim edən film kimi hansı kinonun adını çəkə bilərsiz.**

- Bu məqamı mən bir dəfə də bölüşmüşəm. 1995-ci ildə Moskvada kinonun 100 illiyi münasibətilə dünyanın ən nüfuzlu kinoşünaslarından, tənqidçilərdən rəy öyrənirdilər.

"Dünya kinosunun ən gözəl əsəri" sorğusunda 6 siyahıya Azərbaycan kinosu daxil oldu. Bu da "Mavi dənizin sahilində" filmi idi. Boris Bornet və Səməd Mərdanovun filmi. Film sənət əsəridir. Amma burada demək olar ki, tanınmır.

Böyük film ola bilsin ki, haradasa tanınmasın, bilinməsin. Amma əsas odur ki, böyük kino dünya haqqında, həyatın gedişatı haqqında təsəvvürləri zənginləşdirən filmlərdir.

**- Azərbaycan filminin inkişafını hansı tip filmlərdə görürsünüz?**

- 3 istiqaməti qeyd etmək istərdim. Bunlardan biri artıq özəl büdcəylə çəkilən əyləncə filmləridir. Bu tendensiya artıq yaranıb. Mən bu hala çox yaxşı baxıram. Bu istiqamət inkişaf etsə, sənət kinosuna müsbət xidmətləri olacaq. Bu filmlər haqqında bayağılıq, səthilik və s. qənaətlərdə deyiləm. Bu tip filmlər olmalıdır.

İkinci tip filmlər o filmlərdir ki, onları mən vətənpərvər filmlər adlandırmazdım. O filmlər ki, onlar insanlarda ruh yüksəkliyi yaradır. İnsanları mübariz olmağa çağırır. Saf, həqiqi milli ruh, həyata, yaşamağa inam aşılayan filmlər. Mütləq deyil Qarabağ mövzusunda olsun, şəxsiyyəti möhkəmlədən, çətinliklərə sinə gərməyi bacaran bir insan formalaşdıran filmlərdən söhbət gedir. Çünki mən həqiqətən bir şeyin şahidi oldum ki, ətrafımda yaşayan, ünsiyyətdə olduğum bir sıra adamlar var ki, onlar üçün heç bir fərqi olmadı ki, onlar Sovet İttifaqında yaşayır, yoxsa, müstəqil Azərbaycanda. Mənim üçün çox böyük fərqi var. Məsələn, mən hər gün sovetin dağılmasını, müstəqilliyimizi bir möcüzə kimi düşünürəm. Mən hər gün bayrağımızı görəndə onun qırmızı deyil, üçrəngli olduğunun fərqini hiss edirəm. Üstündən 25 il ötsə də, mən hər gün buna sevinirəm, hər gün.

Nəhayət, üçüncü isə, sənət əsərləri... O filmlər ki, dünya haqqında, kino dili haqqında təsəvvürləri genişləndirir. Milli mədəniyyətə nəsə gətirir.

Bu 3 istiqaməti fərqləndirmək istəyirəm. Və çox istərdim ki, son iki istiqamət dövlət tərəfindən maliyyələşdirilsin. Çünki sonuncu istiqamət artıq özünü maliyyələşdirir.

İstənilən halda sənət filmlərinə qayğı olmalıdır.

Orta sinif işıq pulunu düşünür, amma bu o demək deyil ki, bu mütləq hansısa filmin əsas mövzusuna çevrilməlidir. Kiminsə qarnı ağrıyır, kimsə xərçəng xəstəliyinə tutulub, kimsə borcunu verə bilmir, amma bunlardan film çəkmək vacib deyil. Filmlərin mövzusu bir pillə məişət mövzularından yuxarı qalxmalıdır. Bu, mənim düşüncəmdir.

*Söhbətləşdi:*

**Sərdar AMİN**

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 20 yanvar.- S. 9.**